8 iyul.2023.-S.26.

Ədəbiyyat QƏZETİ

# Parlaq elmi uğurlar işığında




"Mən Şirindil Alışanlını tanıyalı onu... daim bir missiya-qayğı, bir məsuliyyət, bir ictimai borc narahatlığı ilə yaşayan görmüşəm. Bunun adı: Azərbaycan ədəbiyyatşünaslığı; onun bütün səviyyəsi; qayğıları, problemləri, ədəbiyyat qarşısında cavabdehlik və xidməti finksiyaları. Şirindil Alışanlı həmişə bu haqda bir nassionari, ədəbiyyatşünaslığın tam səlahiyyətli, missiya daşıyıcısı kimi danışır.

Haqlı olaraq. Bu haqqı Şirindil Alışanlı halal qazanmış, ömür uzunu böyük zəhməti, işi, fəaliyyəti ilə sübut etmişdir..."

Yaxın günlərdə AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun qərarı ilə çap olunmuş "Şirindil Alışanlı" kitabına daxil edilmiş "Azərbaycan tənqidşünaslığının Şirindil Alışanlı formulu-70 yaşın tezisləri" məqaləsində AMEA-nın müxbir üzvü, professor Tehran Əlişanoğlu belə yazır.

Yeni nəşrə filologiya elmləri doktoru, professor Şirindil Alışanlı haqqında mətbuatda dərc edilmiş məqalələr, əsərləri haqqında rəylər, həmçinin, məktub və təbriklərdən seçmələr, ona həsr edilmiş bədii nümunələr və alimin biblioqrafik göstəricisi daxil edilib.

Kitaba AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli əhatəli ön söz yazıb. Vurğulayıb ki, Ş.Alışanlı Azərbaycan ədəbiyyat nəzəriyyəsi elmində bədii metod, o cümlədən yaradıcılıq metodunun tipologiyası, poetika, dövrləşdirmə və sair kimi problemlərin araşdırılması və nəzəri həllinə özünün sanballı töhfələrini vermişdir.

Xalq yazıçısı, professor Elçin alimin 70 illik yubileyi münasibətilə qələmə aldığı "Ədəbi-elmi axtarışlar yolunda" məqaləsində dərin əminliklə qeyd edir: "Şirindil ədəbi prosesə şeiri duyan, onun ideya-estetik tutumunu, emosional qatlarını ümumiləşdirməyi bacaran, sosioloji təhlildən hər vəchlə yan keçməyə çalışan bir tənqidçi kimi gəlmişdir".

Əməkdar elm xadimi, professor Qəzənfər Paşayev alim həmkarına ünvanladığı dost məktubunda qeyd edir ki, Ş.Alışanlı çağdaş ədəbiyyatşünaslıq elmimizin cövhəri nəzəriyyə və tənqid üzrə görkəmli alimdir. Onun Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi və Müdafiə Şurasında hər çıxışı və elmi-nəzəri münasibəti ustad dərsi təsiri bağışlayır.

Yeni nəşrdə Dövlət mükafatı laureatı, professor Nizaməddin Şəmsizadə, Özbəkistan Milli Universitetinin Özbək ədəbiyyatşünaslığı kafedrasının müdiri, professor Həmidulla Baltabayev, professor Əlizadə Əsgəli, filologiya elmləri doktoru Sara Osmanlı, filologiya üzrə fəlsəfə doktorları Səfurə Quliyeva, Aygün Bağırlı, Elnarə Qaragözova, Hicran Nəsibova, İlham Məmmədli, Günay Qarayeva, Elmira Babayeva, filologiya elmlər doktoru Esmira Fuad və başqaları da görkəmli alim barədə dərin qədirbilənliklə söz açırlar. Eləcə də Fəridə Vəlixanova, görkəmli tənqidçilər Vaqif Yusifli, Qurban Bayramov Ş.Alışanlının elmi-nəzəri fəaliyyətini yüksək qiymətləndirirlər.

Kitabda unudulmaz Kamal Talıbzadənin Ş.Alışanlının elmi fəaliyyətini incələyən "Çağdaş tənqidimizin nümayəndəsi" məqaləsi də yer alıb.

Bütövlükdə yeni nəşr Şirindil Alışanlının elmi yaradıcılığına və şəxsiyyət bütövlüyünə heyranlıq dolu baxış sərgiləyir.

*S.HÜSEYNOĞLU*